# AKADEMİK TEYMUR KƏRİMLİNİN YARADICILIĞINDA MƏĞRUR VƏTƏNİN TƏRƏNNÜMÜ

*Əgər bilmək dilərsənsə,*
*Dəmir Yumruq nədən doğmuş:*
*Dəmir yurddan, dəmir eldən,*
*dəmir iradədən doğmuş!*

**Teymur Kərimli.**

Azərbaycan klassik ədəbiyyatının tanınmış tədqiqatçısı, ədəbiyyatşünas alim, AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, Nizami Gəncəvi əlyazmalarının tədqiqi şöbəsinin müdiri, "Şöhrət" ordenli akademik Teymur Kərimli Azərbaycan ədəbiyyatında özünəməxsus dəsti-xətti ilə seçilir.

Akademik Teymur Kərimli dahi şairlərimizdən Nizami, Nəsimi, Füzuli, Şəhriyar, Cavid və bir çox digər klassiklərimizin yaradıcılığını tədqiq edib. Alimin bu sahədə çoxsaylı əsərləri: monoqrafiya və məqalələri klassik ədəbiyyatımızın tədqiqinə əvəzedilməz töhfədir. Biz gənclər onun tədqiqat əsərləri sayəsində klassik irsimiz, Nizami, Nəsimi və Füzuli yaradıcılığının, eləcə də Şəhriyar şeirlərinin dərinlikləri ilə tanış oluruq. Alimin bu istiqamətdə yazdığı "Nizami və tarixi" (20022021), "Görünməyən Füzuli" (2003), "Çağdaşımız Nəsimi" (2019) və s. monoqrafiyaları gərgin əməyin, dərin tədqiqat işinin nəticəsidir.

Akademik Teymur Kərimlinin Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Ulu Öndərin həyatından, vətənimizə verdiyi əvəzolunmaz xidmətlərindən bəhs edən "Heydər Əliyev və klassik irs" adlı kitabı 2023-cü ildə çap olundu. "Heydər Əliyev İli"nə bir töhfə oldu. Bir sözlə, geniş elmi ictimaiyyət həm ölkədə, həm də onun hüdudlarından kənarda Teymur Kərimli imzasını daha çox ədəbiyyatşünas və mətnşünas alim kimi tanıyır.

Teymur müəllimin çıxışlarını dinləyən hər kəs onun necə vətənpərvər, millətpərəst bir alim olduğunun şahididir. Bununla yanaşı, Teymur Kərimli həm də incə ruhlu lirik, kəskin satirik şeirlərində müəllifi, Azərbaycan Yazıçılar İttifaqının üzvü və İdarə Heyətinin üzvüdür.

Hər zaman şeirlərində vətəni, vətənə olan sevgisini tərənnüm edən akademikin "Şuşa İli"nə (2022) həsr edilmiş "Şuşanamə" kitabı bu mövzuda yazılmış dəyərli kitablardan biridir.

Akademikin "Şuşanamə" kitabı II Qarabağ müharibəsində şanlı ordumuzun qazandığı Zəfərə həsr olunmuş poetik əsərlərdən ibarət ilk kitabdır. "Şuşanamə" Qarabağ müharibəsində gedən döyüşlərdə igid əsgər və zabitlərizin Vətənin hər bir qarış torpağı uğrunda apardığı ədalətli mübarizədə qazandığı qələbələrindən bəhs edən şeirlərdən ibarətdir. Alimin II Qarabağ müharibəsində erməni işğalçılarının terrorizmini, işğalçı siyasətini pisləyən ictimai-siyasi lirikası, həm də düşmənin qorxaqlığını tənqid atəşinə tutan satirik şeirləri bu kitabda öz yerini almışdır. Məsələn:

Tülkülərtək qaçdılar nərən duyub namərd yağı,
Haydı qoş, əz başların, əz, arslanım, mərhəba!



Müəllifin 44 günlük Vətən müharibəsindən sonra ədəbiyyatımızda yazılmış ilk siyasi qəzəl olan "Vətən məğrur, mən məğrur" şeiri Vətən torpaqlarının işğaldan azad olunması mövzusunda yazdığı ilk əsəridir. Şairin bu qəzəli oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. Qəzəli oxuduqca yazıçının keçirdiyi fərəh hissini duymaq mümkündür.

Qəzəli oxuyarkən akademik Teymur Kərimlinin böyük türk şairi Namiq Kamalın bu beytinə cavabı diqqəti cəlb edir:

*Ölürsəm, görməsəm millətdə ümmid etdiyim feyzi,*
*Yazılsın səngi-qəbrimdə: "Vətən məhzun, mən məhzun".*

(Namiq Kamal)

Namiq Kamal öz şeirində Vətən torpağının ağır günlərindən bəhs etdiyi halda, akademik Teymur Kərimli Ali Baş Komandanın dəmir yumruğu sayəsində Vətən torpağının düşmən tapdağından azad olmasından təsirlənir və qürur hissi ilə yazır:

Döyüşdə mərd igidlərdir,
Dilində "Yurdum"əzbərdir!
Bu gün Teymur da əsgərdir!
Vətən məğrur, mən məğrur!

Ali Baş Komandanın düşmənin başına enən dəmir yumruğu bizim başımızı göylərə ucaltdı! (Teymur Kərimli).

Vətən torpağının 30 ildən çox yağı düşmənlərin tapdağı altında qalması hər bir azərbaycanlı oğlu kimi Teymur müəllimin qəlbində də dərin bir yara izi açmışdı.

Akademik Teymur Kərimli "Vətən məğrur, mən məğrur" qəzəlində Vətən torpağına olan həsrətininin sona yetməsindən fərəh duyur, Ali Baş Komandanın rəhbərliyi altında igid oğullarımızın canları, qanları bahasına işğal altında olan el-obamızın azad etməsindən və bundan doğan sevinc hissindən məğrur ölkənin, məğrur vətəndaşı kimi bəhs edir:

Vətən torpağı həsrət,
Otuz il qaldı zillətdə....
XİLASKAR gəldi,əlbəttə!
Vətən məğrur, mən məğrur!

Bulaqlar Səlsəbil olsun,
Şəhidlər cənnətə dolsun!
Yağı artıq rəzil olsun!
Vətən məğrur, mən məğrur!

Qeyd etməliyik ki, 44 günlük Vətən müharibəsində mərd igidlərimizlə birgə arxa cəbhədə Teymur müəllim kimi qələm ustadları da öz qələmlərini silah kimi istifadə etdilər. Teymur Kərimli sələfi Səməd Vurğun kimi qələmi süngüyə çevirməyə nail oldu. O da qələmi ilə - şeirləri və məqalələri ilə azadlıq səsimizi dünyaya çatdırdı.

Alim Azərbaycanın sərhədləri hüdudlarından kənara çıxaraq ədalətli müharibədə bizə arxa, dayaq olan türk dünyasının bu qələbə sevincini bölüşdüyündən qürur hissi ilə bəhs edir:

Bu müjdə çox şirin-şəkkər,
Bütün Türk elləri gözlər!
Bizə İlham verir Rəhbər!
Vətən məğrur, mən məğrur!

Şairin vətənpərvərlik mövzusunda yazdığı şeirlər bununla bitmir.

Alimin "Şuşanamə" kitabında Vətənimizin dilbər guşələrindən olan Şuşaya qayıdışımızdan bəhs edən bir sıra şeirlər yazıb. Onun "Əziz Şuşa! Biz Qayıtdıq!" (2020), "Şuşam" (2022), "Şuşamız" (2022), "Şuşanın dağları" (2022), "Can Şuşam!" (2022) kimi şeirləri "Şuşanamə" kitabında öz layiqli yerini alıb. Bu şeirlərdə dağlarının başı hər zaman qar, çəmənləri gül-çiçək olan Şuşamızın igidlərimizin misilsiz şücaəti sayəsində azad olduğunu xüsusi vurğulayır:

Şuşanın dağları yenə də qarmı?
O qarın üstünə qanlar axarmı?
Otuz il yatanın günahı varmı?
Torpaq, nə səbirdir belə göstərmisən?
Torpaq,nə qəbirdir ona gül sərmisən?

"Əziz Şuşa! Biz Qayıtdıq!" şeirində şair illərlə səfalı guşələrinə, torpağına, suyuna həsrət qaldığımız Şuşaya Ali Baş Komandanın rəhbərliyi altında qayıtmağımızdan, düşmənə cavab olaraq Cıdır düzündə "Xarı bülbül" festivalının keçirilməsindən qürur hissi ilə bəhs edir:

Komandan gəzəndə Cıdır düzündə,
Saf ürəyi dağa dönər Şuşanın!

Akademik Teymur Kərimli öz şeirində Şuşaya qayıdışımıza bizimlə birgə sevinən, bizə arxa, dayaq olan qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın aforizminə xüsusi yer verir:

Qəşəng demiş Rəcəb Tayyib Ərdoğan: "Dumanı da gülümsəyər Şuşanın!"

Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Şöhrət" ordenli Akademik Teymur Kərimliyə Vətən sevgisi ilə dolu, maraqlı və təsirli şeirlərinə görə gənclər adından təşəkkür edir və şeirlərinin, məqalələrinin, həyat amalı olan dərin tədqiqatlarının davamlı olmasını arzu edirik!

***Azadə ABBASOVA,***
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Fondların elmi uçotu və mühafizəsi şöbəsinin mütəxəssisi***